

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 122 (21.274)

23 iyun 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Latviya Respublikasının yeni seçilmiş Prezidenti Raymonds Veyonis ilə görüşüb.

Prezident İlham Əliyev Azərbaycan ilə Latviya arasında ikitərəfli münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini bildirdi.

Latviya Respublikasının yeni seçilmiş Prezidenti Raymonds Veyonis Latviya-Azərbaycan əməkdaşlığının yaxşı səviyyədə olduğunu bildirdi, ölkələrimizin iş adamları, müxtəlif nazirliklər və qurumlar arasında əlaqələrin genişləndirilməsi üçün böyük imkanların mövcudluğunu qeyd etdi.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 22 iyun tarixli Sərəncamı ilə dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə bir qrup dövlət qulluqçusu təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dövlət qulluqçuları da vardır.

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Abdullayev Rəfail Abdulla oğlu
Bağırov Aləm Məhərrəm oğlu
Əhmədov Namiq Əhməd oğlu
İbrahimov Fəxrəddin Məhərrəm oğlu
Quliyev Niyazi Alqulu oğlu
Quliyev Nurəddin Beytulla oğlu
Quliyev Səfər Şahbaz oğlu
Mahmudov Bəxtiyar Şükür oğlu
Musayev Etibar Cəmil oğlu
Orucəliyev Ramiz İman oğlu
Səfərov Cavid Fəxrəddin oğlu
Şirzadov Cavanşir Əli oğlu

## Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 16 yanvar tarixli 994 nömrəli Sərəncamına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının qiymətləndirilməsi aparılan müəllimlərin həftəlik dərs yükü norması 1,5 dəfə, aylıq vəzifə maaşları orta hesabla 2 dəfə artırılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam 2015-ci il sentyabr ayının 15-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 22 iyun 2015-ci il*

## M.Ə.Cabbarzadənin Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin sədri təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Müslüm Əli oğlu Cabbarzadə Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin sədri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 22 iyun 2015-ci il*

### 23 iyun Dövlət qulluqçularının peşə bayramıdır

## Xalqa və dövlətə xidmət amalı

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2006-cı il 25 may tarixli Sərəncamına əsasən, hər il iyunun 23-ü ölkəmizdə Dövlət qulluqçularının peşə bayramı günü kimi qeyd olunur.***

Azərbaycanda müasir dövlət qulluğu sisteminin formalaşdırılması və inkişafında ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətləri vardır. 1995-ci ildə ulu öndərimizin rəhbərliyi ilə işlənib hazırlanan Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə dövlət quruculuğu və idarəçilik prinsiplərini təsbit etmişdir. Dövlət qulluğu sahəsində aparılan islahatların ən mühüm nəticələrindən biri isə 2000-ci il iyulun 21-də qəbul edilən "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunudur. Bu qanunla Azərbaycanda dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsası qoyulmuş, dövlət qulluqçularının hüquq və vəzifələri müəyyənləşdirilmişdir.

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, Azərbaycan Respublikasının 16 yaşına çatmış, irqindən, milliyyətindən, dilindən, cinsindən, sosial mənşəyindən, əmlak vəziyyətindən, yaşayış yerindən, dinə münasibətindən, əqidəsindən, ictimai və digər birliklərə mənsubiyyətindən asılı olmayaraq, müvafiq vəzifələrin tələblərinə uyğun gələn vətəndaşlarının dövlət qulluğuna qəbul edilmək hüququ vardır. Bu müddəa ilə respublikamızda dövlət qulluğuna qəbulda diskriminasiyanın hər hansı bir formada təzahür etməsinin qətiyyətlə qarşısı alınmışdır.

Dövlət qulluqçusunun öz işinə münasibəti ölkə vətəndaşlarının dövlət idarəetmə orqanlarına münasibətini formalaşdırır. Buna görə də dövlətin və onun vətəndaşlarının qulluğunda durmaq, gördüyü işlə vətəndaşın dövlətə və dövlət qulluğuna inam və güvənini artırmaq, davranış və əməlləri ilə gənc nəslə örnək olmaq kimi məsələlər hər bir dövlət qulluqçusunun qarşısında duran əsas vəzifələrdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Dövlət qulluğunda çalışmaq o deməkdir ki, həmin vətəndaşa müstəqil, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun ön sıralarında olmaq imkanı etibar edilmişdir. Hər bir şəxs bilməlidir ki, dövlət qulluğunda olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır. Tutduğu vəzifənin səviyyəsindən və əhəmiyyətindən asılı olmayaraq, dövlət qulluqçusu həmişə xatırlamalıdır ki, o, xalqın xidmətçisidir, insanlara xidmət, onların qayğıları ilə yaşamaq onun əsas vəzifəsidir".***

Bu gün Azərbaycanda milli dövlət quruculuğu istiqamətində islahatlar uğurla davam etdirilir. Ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün tələblərinə cavab verən çevik dövlət idarəçilik sisteminin formalaşdırılması, insan və vətəndaş hüquq və azadlıqlarının yüksək dövlət təminatına nail olunması diqqət mərkəzində saxlanılır.

Bu gün Naxçıvan Muxtar Respublikasında da dövlət qulluğu sahəsində aparılan islahatlar uğurla davam etdirilir. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2008-ci il aprelin 22-də "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın yaradılması haqqında" Fərman imzalamışdır. Komissiyanın yaradılmasında əsas məqsəd muxtar respublikada kadr siyasətinin həyata keçirilməsi, dövlət qulluğu ilə bağlı qəbul edilmiş normativ hüquqi aktların tətbiqinin təşkil edilməsi, dövlət qulluğu üçün kadrların müsabiqə ilə seçilməsi, yerləşdirilməsi və digər məsələlər barəsində qanunvericiliklə nəzərdə tutulmuş siyasətin həyata keçirilməsini təmin etməkdən ibarətdir.

Ali Məclis Sədrinin diqqət və qayğısı nəticəsində 2011-ci ilin iyul ayında komissiya üçün müasir standartlara cavab verən və lazımi texniki avadanlıqlarla təmin olunmuş inzibati bina istifadəyə verilmişdir. Binada test imtahanlarının elektron formada keçirmək üçün mərkəzi server sistemi qurulmuş, test imtahan mərkəzi yaradılmışdır. Test imtahanlarının şəffaf və obyektiv keçirilməsini daha da yaxşılaşdırmaq məqsədi ilə 2013-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən komissiya üçün yeni proqram təminatı hazırlanmışdır. Proqram təminatı test imtahanlarının və müsahibələrin audio-video yazısının mərkəzi server sistemində qeydə alınması imkanı yaratmışdır.

Komissiya üzvləri yaradılan imkanlardan səmərəli istifadə edərək kadr təminatının yaxşılaşdırılmasına öz töhfəsini verir. Bu il komissiya Naxçıvan Muxtar Respublikası daxili işlər orqanlarında orta zabit heyəti vəzifələrinə və Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində vakant olan vəzifələrin tutulması üçün test imtahanını uğurla keçirmişdir. Həmçinin 2015-ci il fevralın 18-də dövlət orqanlarında inzibati vəzifələrin VI-VII təsnifatına uyğun vakant vəzifələrin tutulması üçün müsabiqə elan etmiş və 351 namizəd qeydiyyatdan keçmişdir. Onlardan 149-u test imtahanında müvəffəqiyyət qazanaraq müsabiqənin müsahibə mərhələsində iştirak etmək hüququ qazanmışdır.

Ümumilikdə indiyədək komissiya tərəfindən dövlət qulluğunda vakant inzibati vəzifələrin tutulması üçün 8 müsabiqə keçirilmişdir. Müsabiqələrdə 2604 namizəd iştirak etmiş, onlardan 507-si müsabiqəni müvəffəqiyyətlə başa vuraraq dövlət orqanlarında vakant vəzifələrə təyin olunmuşlar. Həmçinin komissiyanın təşkilatçılığı ilə xüsusi dövlət orqanları üzrə 18 müsabiqənin test imtahanları da uğurla başa çatdırılmışdır. Bu imtahanlarda 899 namizəd iştirak etmiş, onlardan 263-ü müvafiq keçid balını toplamışdır. Keçirilən müsabiqələrdə iştirak edənlərin sayının artması onu göstərir ki, bu sahədə həyata keçirilən dövlət siyasəti öz bəhrəsini verir və gənclərin dövlət qulluğuna marağı ilbəil artır.

Muxtar respublikada dövlət qulluqçularının fəaliyyətinin yaxşılaşdırılması, xüsusilə onların iş şəraitinin müasirləşdirilməsi diqqət mərkəzində saxlanılır. Dövlət orqanları üçün müasir inzibati binaların tikilib istifadəyə verilməsi, dövlət idarəçiliyi sistemində yeni texnologiyaların tətbiqi, "Elektron hökumət"in qurulması bu sahədə görülən işlərin tərkib hissəsi kimi mühüm əhəmiyyətə malikdir. Muxtar respublikada dövlət qulluqçularının fəaliyyətinə yüksək qiymət verilir, idarəçilik təcrübəsi, bacarıq və peşəkarlığı yüksək olan dövlət qulluqçuları ölkəmizin və muxtar respublikanın ali dövlət mükafatları ilə təltif edilirlər.

Muxtar respublikamızın dövlət orqanlarında bu gün 2 mindən artıq dövlət qulluqçusu işləyir. Dövlət qulluqçularının "Dövlət reyestrinin" yaradılması və ondan istifadə edilməsi üçün texniki imkanların təmin edilməsi dövlət orqanları arasında kadrla bağlı məsələlərin çevik və operativ şəkildə həll edilməsində mühüm əhəmiyyətə malikdir.

Peşə bayramlarını qeyd edən muxtar respublikanın dövlət qulluqçuları bundan sonra da xalqa və dövlətçiliyə sədaqətlə xidmət edəcək, milli maraqları uca tutacaq, göstərilən qayğının müqabilində ölkəmizin inkişaf və tərəqqisinə öz töhfələrini verəcəklər.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

***Naxçıvan Dövlət Universitetində Tibb fakültəsinin ənənəvi məzun günü keçirilib.***

## Tibb fakültəsinin məzunları Hippokrat andı içiblər

Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov muxtar respublikada ali təhsilli tibbi kadrların hazırlanması istiqamətində görülən işlərdən danışıb.

Qeyd olunub ki, bu yaxınlarda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirakı ilə Tibb fakültəsinin müasir tələblərə cavab verən yeni xəstəxana binasının istifadəyə verilməsi, xəstəxananın müasir tibbi avadanlıqlarla təchiz olunması səhiyyənin inkişafına göstərilən dövlət qayğısının parlaq təzahürüdür.

Tibb fakültəsinin dekanı, dosent Bəhruz Məmmədov hesabat xarakterli məruzəsində bildirib ki, 1999-cu ildə Pediatriya ixtisası ilə təməli qoyulan fakültədə 2007-ci ildə Tibbi profilaktika və 2011-ci ildə Müalicə işi ixtisasları açılıb. Bir ixtisasla fəaliyyətə başlayan fakültə ötən dövr ərzində inkişaf edərək bu gün 4 kafedrada 5 ixtisas üzrə həkim hazırlığını həyata keçirir.

Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov regionda yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasında Tibb fakültəsinin rolundan, məzunların iş yerləri ilə təmin olunmasına göstərilən qayğıdan danışıb.

Universitetin Tibb fakültəsinin yaradılmasında və fəaliyyətində özünəməxsus rolu olan Azərbaycan Tibb Universitetinin kafedra müdiri, akademik Adilə Namazova Tibb fakültəsinin inkişaf yolundan söz açıb, məzunları təbrik edərək onlara uğurlar arzulayıb.

Sonra məzunlar Hippokrat andı içiblər. Məzun günü konsert proqramı ilə yekunlaşıb. Tədbirdə fakültənin 16 illik fəaliyyəti ilə bağlı slaydlar da nümayiş etdirilib.

**Mehriban SULTAN**

## Türkiyə Cümhuriyyətinin doqquzuncu Prezidenti, görkəmli siyasətçi Süleyman Dəmirəllə vida mərasimi keçirilmişdir

İyunun 17-də Türkiyə Cümhuriyyətinin 9-cu Prezidenti Süleyman Dəmirəl 91 yaşında vəfat etmişdir.

İyunun 19-da Türkiyə Böyük Millət Məclisində qardaş ölkənin siyasət tarixinin 50 ildən artıq bir dövrünə öz adını yazdırmış Süleyman Dəmirəllə vida mərasimi keçirilmişdir. Mərasimə görkəmli siyasətçinin yaşadığı evin qarşısından başlanılmış və daha sonra cənazə Türkiyə Böyük Millət Məclisinə gətirilmişdir.

Əvvəlcə Süleyman Dəmirəlin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, görkəmli siyasətçinin keçdiyi həyat yolu və siyasi fəaliyyəti barədə geniş məlumat verilmişdir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mərasimdə çıxış etmiş, Süleyman Dəmirəlin Türkiyənin siyasi tarixində mühüm yer tutduğunu bildirmişdir.

Hökumətin qərarı ilə Türkiyədə elan edilən milli matəmlə əlaqədar bütün ölkə ərazisində bayraqlar yarıya qədər endirilib.

Vida mərasimində hökumətin və parlamentin üzvləri, digər dövlətlərin yüksək vəzifəli şəxsləri, nüfuzlu siyasətçilər, mərhumun ailə üzvləri, ictimaiyyətin nümayəndələri iştirak ediblər. Azərbaycanı mərasimdə Milli Məclisin sədri Oktay Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Əlövsət Baxşıyev vida mərasimində iştirak etmiş, Naxçıvan Muxtar Respublikasının adından mərhumun cənazəsinə əklil qoyulmuşdur.

Vida mərasimindən sonra Süleyman Dəmirəlin cənazəsi böyük izdihamın müşayiəti ilə Türkiyə Böyük Millət Məclisindən Ankaradakı Kocatəpə məscidinə, oradan isə mərhumun doğulduğu İsparta vilayətinin İslamköy kəndinə aparılmışdır. Türkiyənin doqquzuncu Prezidenti, görkəmli siyasi və dövlət xadimi Süleyman Dəmirəl iyunun 20-də İspartanın Atabəy rayonunun İslamköy kəndində dəfn edilmişdir.




## Muzey ziyarətləri davam etdirilir

*Qədim Naxçıvan diyarının tarixi, zəngin mədəniyyəti ilə tanışlıq məqsədilə muxtar respublikada fəaliyyət göstərən mərkəzi icra hakimiyyəti orqanlarının, eləcə də digər təşkilat və qurumların əməkdaşlarının muzeylərə ekskursiyaları davam etdirilir.*

İyunun 20-də “Muzey günləri” çərçivəsində Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin, Dövlət Baş Sığorta Agentliyinin kollektivləri Heydər Əliyev Muzeyini ziyarət ediblər. Burada onlara məlumat verilib ki, muzeydə 4500-dən çox eksponat vardır. Fəaliyyət göstərdiyi dövrdə muzeyin 250 mindən çox ziyarətçisi olub. Muzeydəki eksponatların hər biri ayrı-ayrılıqda elmi-tədqiqat mövzusudur. Ölkəmizin müasir dövlətçilik tarixinin və ulu öndərimizin siyasi irsinin tədqiqatçıları burada elmi axtarışlar üçün dəyərli məlumatlar əldə edirlər.

Ziyarət əsnasında təəssüratlarını bizimlə bölüşən Dövlət Baş Sığorta Agentliyinin əməkdaşı Hafiz Hüseynov bildirdi ki, muzeylər bəşəriyyətin çoxəsrlik tarixi ərzində ən qiymətli sərvətlərin mühafizəçisi, xəzinədarı və yaddaşnaməsi, salnaməsidir. Muzeylər, sözün əsl mənasında, xalqın yaratmış olduğu ən qiymətli xəzinədir. Bu xəzinənin qiymətli inciləri ilə tanış olduğum üçün “Muzey günləri”nin təşkilatçılarına minnətdarlığımı bildirirəm.

Həmin gün Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin, Arxiv İdarəsinin əməkdaşları Dövlət Bayrağı Muzeyinə ziyarət çərçivəsində bu mədəniyyət müəssisəsi haqda ətraflı məlumat alıblar.





Dövlət Bayrağı Muzeyi ilə tanışlıqdan yaranan təəssüratlarını bizimlə bölüşən Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşı Şəmsəddin Sevdimalıyev bildirdi ki, öz tarixi keçmişini, milli dəyərlərini bilmək hər bir vətəndaş üçün çox mühümdür. Çünki insan, ilk növbədə, hansı milli mədəniyyətə mənsub olduğunu bilməlidir və milli dəyərləri, zəngin mədəniyyəti yaşatmalıdır. “Muzey günləri” çərçivəsində Naxçıvan muzeylərinə gələn hər bir muxtar respublika sakininin maraq dairəsi, düşüncələri və həyata olan baxışları dəyişir. Bu tədbirin təşkilatçılarına minnətdarlığımı bildirirəm.

Ötən şənbə günü Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Dövlət Baytarlıq Xidməti və struktur qurumlarının baş çəkdiyi ünvan Ədəbiyyat Muzeyi oldu. Naxçıvan Dövlət Tarix Muzeyini isə Dövlət Sosial Müdafiə Fondunun, Mərkəzi Seçki Komissiyasının əməkdaşları ziyarət etdilər.

“Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə tanışlığa bu dəfə Dövlət Statistika Komitəsinin, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşları gəlmişdilər. Muzeyi ziyarət zamanı Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin əməkdaşı Vüsalə Nəcəfova ilə söhbətimiz zamanı dedi ki, muxtar respublikada “Muzey günləri”nin təşkil olunması bütün dövlət qulluqçuları kimi onun da ürəyincə olub. Muzeylərin ziyarət olunması insanlara tariximizin, milli mədəniyyətimizin, kimliyimizin aşılanması istiqamətində görülən işlərin mahiyyətindən xəbər verir.

Vüsalə Nəcəfova bildirdi ki, “Muzey günləri”nin keçirilməsi muxtar respublika sakinlərinin doğma diyarımızın tarixini öyrənmələri baxımından mütərəqqi hadisədir. Təsəvvür edin ki, yol ilə gedirsiniz və sizdən xaricdən gələn bir nəfər şəhərin tarixi-mədəni abidələri haqqında soruşur. Sizin isə turistin soruşduğu abidə haqqında ətraflı məlumatınız yoxdur. Bu hal qəbuledilməzdir. Bu baxımdan “Muzey günləri”nin çox böyük əhəmiyyəti vardır.

İyunun 20-də Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin, Televiziya və Radio Şurasının, “Şərq qapısı” qəzeti redaksiyasının, Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin kollektivlərinin getdiyi mədəniyyət müəssisəsi isə Naxçıvan Dövlət Xalça Muzeyi oldu. Həmin gün “Naxçıvanqaz” İstehsalat Birliyinin və Satınalmalar üzrə Dövlət Agentliyinin kollektivləri isə Cəmşid Naxçıvanskinin ev-muzeyini ziyarət ediblər.

## Sağlamlıq imkanları məhdud uşaqlar diqqət və qayğı ilə əhatə olunub

### *Ağbulaq İstirahət Mərkəzində keçən bir neçə saatın təəssüratları*

**Hər ailə dünyaya gələcək övladı gözləyərkən o uşaqla bağlı arzuların dilə gətirər, xəyallar qurar, o övladla bağlı gələcək planlarını yaxınları ilə bölüşər. Təbii ki, dünyaya sağlamlıq imkanları məhdud bir uşağın gələcəyi ehtimalını heç kim düşünməz, ağlına belə gətirməz. Ailədə sağlamlıq imkanları məhdud bir uşağın dünyaya gəlməsi həm ata-ana, həm də ailənin yaxınları üçün çətin, gözlənilməyən vəziyyətdir. Çünki belə olan halda həmin uşağın gələcəyi ilə bağlı qurulan bütün arzularda, xəyallarda dəyişiklik baş verir, ailə üzvlərinin üzərinə düşən vəzifələr, məsuliyyət daha da artır.**

Naxçıvanda ailə dəyərlərinə xüsusi önəm verilməsinin nəticəsidir ki, dünyaya sağlamlıq imkanları məhdud uşaq gətirən bir çox ailələr uşaqlarının fərqli olmasını qəbul edir, övladlarını bu vəziyyətdə özünə qapanmaqdan uzaqlaşdırır, onlara qayğı göstərir. Bu, çox sevindirici haldır. Çünki yalnız bu halda uşaq yaşıdlarından imkanları daxilində geri qalmamağa çalışır, həyatında baş verən nizamsızlıqların öhdəsindən gəlir. Danışığı, ünsiyyəti, təmizliyi, geyiminə diqqəti, oxuyub-yazmağı kimi təməl zehni bacarıqları və ictimai sahədəki digər bütün bacarıqları inkişaf edir. Belə uşağa təsir edən amillər sırasında digər uşaqların və ata-ananın ona qarşı müsbət davranışları, ailənin ümumi emosional yetkinlik səviyyəsi, ana-atanın təhsil səviyyəsi də var.

Valideynləri tərəfindən böyük bir şəfqətlə əhatə olunsa da, uşağın təhsil müddətində ortaya bir sıra problemlər çıxır və ailələr ciddi köməyə ehtiyac duyurlar. Məhz bu zamanda belə ailələr dövlətimizin diqqət və qayğısını öz üzərlərində hiss edirlər. Qeyd edək ki, son 20 ildə belə qayğıdan yüzlərlə bu qəbildən uşaq bəhrələnib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilən “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”ndan irəli gələn vəzifələrin uğurlu icrası isə sağlamlıq imkanları məhdud uşaqların qarşısında yeni üfüqlər açıb, onların valideynlərinin qəlbində övladının gələcəyinə ümid işığı yandırıb. Adıçəkilən proqramdan irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində həyata keçirilən silsilə tədbirlər bu gün də böyük uğurla və ardıcıllıqla davam etdirilir. Bu tədbirlərin davamı kimi iyun ayının 12-dən 19-dək sağlamlıq imkanları məhdud 50 məktəblinin valideynlərinin müşayiəti ilə Ağbulaq İstirahət Mərkəzində istirahətinin təşkili muxtar respublikada gələcəyimiz olan uşaqlara göstərilən dövlət qayğısının bariz təcəssümü, insan amilinə verilən önəmin parlaq nümunəsidir.

Ötən günlərdə biz Ağbulaq İstirahət Mərkəzinin qonağı olduq, burada uşaqlar üçün yaradılan şəraitlə maraqlandıq. Öyrəndik ki, istirahət mərkəzinə gəldikləri gündən etibarən sağlamlıq imkanları məhdud uşaqların iştirakı ilə müxtəlif idman yarışları, mədəni-kütləvi tədbirlər, intellektual oyunlar keçirilib. Uşaqların Şahbuz rayonunun bənzərsiz təbiət abidələri ilə tanışlıqları da yaddaqalan olub. Onların vətənpərvərlik mövzusunda filmlər izləməsi təmin edilib, Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinə ekskursiyaları təşkil olunub. Fiziki imkanları məhdud ifaçılardan ibarət musiqi qrupu uşaqlar qarşısında konsert proqramı ilə çıxış edib.

Sağlamlıq imkanları məhdud uşaqlar cəmiyyətin ən çox qayğıya ehtiyacı olan təbəqələrindən biri olduğundan onlara qarşı diqqətin artırılması mühüm əhəmiyyət kəsb edir. Bu tədbirlərin keçirilməsi uşaqlara mənəvi dəstək olur, onlarda ruh yüksəkliyi yaradır, onların cəmiyyətdən təcrid olunmasının qarşısını alır.

Ağbulaq İstirahət Mərkəzində olarkən sağlamlıq imkanları məhdud uşaqlarla bərabər, burada istirahət edən valideynlər və uşaqların yaxınları ilə də görüşüb həmsöhbət olduq. Babək rayon Kültəpə kənd sakini Tahirə İsmayılova ürək xəstəliyindən əziyyət çəkən qardaşı oğlu Yusifin səhhətində istirahət mərkəzinə gəldikdən sonra böyük dəyişikliklər olduğunu dedi, burada yaradılan şəraitdən ağızdolusu danışdı. Qeyd etdi ki, uşaqlar üçün bu şəraiti yaradanlara nə qədər minnətdarlıq etsək, azdır.

Culfa rayon Boyəhməd kənd sakini Vüqar Yunisov dedi ki, Qarabağ müharibəsi veteranıyam, dövlətimiz tərəfindən evlə təmin olunmuşam. Açığını deyim ki, iki övladımın sağlamlıq imkanlarının məhdud olması bizə ailəlikcə Naxçıvanın gəzməli-görməli yerlərini gəzib-dolaşmağa imkan vermir. Bu istirahət mərkəzinə göndərildiyimizi eşidəndə mən və həyat yoldaşım Heyran Məmmədova çox sevindik. Bir neçə günlüyə də olsa məişət qayğıları, gündəlik işlər arxada qalıb. Buraya gəlməyimizə ən çox sevinənlər isə övladlarımdır. Onlar burada müsabiqələrdə iştirak etdi, idman tədbirlərinə qatıldı, yeni dostlar qazandılar. Çoxlu uşağın, qayğıkeş insanların əhatəsində olduqları üçün gülərüz, xoşbəxtdirlər. Övladlarımıza bu xoşbəxtliyi bəxş etdiyi üçün muxtar respublikanın rəhbərinə minnətdarıq.

Şərur şəhərindən övladı ilə birlikdə istirahət mərkəzinə gələn Sara Yusifovanın həyat yoldaşı Çernobıl əlilidir. Üç övladının ikisi epilepsiya xəstəliyindən əziyyət çəkir. Deyir ki, burada uşaqların yaxşı istirahət etməsi, asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılıb. İstirahət mərkəzində səliqə-sahman göz oxşayır, hər şey mükəmməl təşkil edilib. Muxtar respublika Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları hər dəqiqə uşaqların qayğıları ilə maraqlanırlar. Burada təşkil edilən müxtəlif yarışlar, müsabiqələr övladlarımın əhval-ruhiyyəsinə çox müsbət təsir edib. Uşaqlar gündə üç dəfə milli mətbəximizin ən ləziz yeməkləri ilə qidalanırlar. Bütün bunlara görə təşkilatçılara dərin minnətdarlığımı bildirirəm.

Burada istirahət edən uşaqlardan Naxçıvan şəhər 15 nömrəli tam orta məktəbin şagirdi Aynur Rzazadə, Naxçıvan Qızlar Liseyinin şagirdi İnci Rzayeva müxtəlif müsabiqələrdə, idman yarışlarında fəallıq göstəriblər. Onlarla söhbət zamanı dedilər ki, ən böyük arzularından biri də kənd həyatı ilə tanış olmaq, vətənin gəzməli-görməli yerlərinə təşkil edilən ekskursiyalarda iştirak etmək olub. Burada tez-tez belə ekskursiyalar, gəzintilər təşkil edilib, onlar bu ekskursiyalarda təbiətlə bağlı məlumatlar alıblar.

Ağbulaqda olduğumuz bir neçə saat ərzində sağlamlıq imkanları məhdud uşaqların, hər cür rahatlıqla təmin edilmiş balacaların böyük dünyası ilə tanış olduq. Gördük ki, bu yaşca kiçik insanların böyük dünyası nə qədər zəngin, rəngarəngdir, arzuları, xəyalları sonsuzdur. Bu arzuların, xəyalların gerçəkləşməsində isə biz böyüklərdən çox şey tələb olunmur. Sadəcə, diqqət, qayğıkeşlik onları dünyanın ən xoşbəxt varlıqları edə bilər.

*Biz Ağbulaq İstirahət Mərkəzində olarkən sağlamlıq imkanları məhdud uşaqların istirahətinin sonuncu günü idi. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları bildirdilər ki, belə sosial layihələr bundan sonra da davam etdiriləcək.*

✍ **Səbuhi HÜSEYNOV**

## Kənd təsərrüfatı ili









# Zəmilərin sarı kəhrəbası yığılır

***Ağlım kəsəndən kəndimizdə taxıl tədarükü başlanan günün insanlara əsl bayram sevinci yaşatdığını görmüşəm. Kənd ağsaqqalları taxılı biçiləcək sahənin kənarına yığışar, biçinə başlanmasını gözləyərdilər. Uşaq marağı ilə biz də sahənin kənarına toplaşardıq. Yaşlılar çörəyin müqəddəsliyindən danışardılar.***

1941-1945-ci illərdə və bir qədər də sonrakı dövrdə insanların çörəklə imtahana çəkilməsi ilə bağlı söhbətlərə hamımız maraqla qulaq asardıq. Nə isə... Zəmilərdə işləyən kombaynların səsi ətrafın sükutunu pozar, çörək ətri verən taxılın tezliklə tədarük olunması, sahələrin sarı sünbülünün vaxtında toplanması üçün qüvvələr səfərbərliyə alınardı. O dövrdə tədarük olunan taxıl ictimai təsərrüfatların anbarına daşınırdı. Bu günün torpaq mülkiyyətçisi isə taxılı tədarük edən kimi özünün illik ruzisini, gələn təsərrüfat ilində əkəcəyi toxumu götürmək, yerdə qalanını isə dəyirmana satmaq imkanları qazanıb və minnətdarlıq hislərini gizlətmir ki, ona belə şərait yaradılıb.

Bu günün həqiqəti odur ki, artıq muxtar respublikamızda strateji məhsul sayılan taxıl məhsullarına olan tələbatın daxili imkanlar hesabına ödənilməsi məqsədilə kompleks tədbirlərin həyata keçirilməsi prioritet vəzifəyə çevrilib. Torpağın şumlanmasından başlayaraq yetişdirilən məhsulun daşınmasına qədər bütün proseslər ciddi şəkildə nizama salınıb. Hər il muxtar respublikaya yeni texnikaların gətirilməsi, meliorasiya və irriqasiya tədbirlərinin həyata keçirilməsi, məhsuldarlığın yüksəldilməsi üçün aqrotexniki tədbirlərin aparılması hesabına dükan-bazarlarımızda çörək bolluğu yaranıb. Öz istehsalımız olan belə çoxçeşidli məhsulların keyfiyyətinə, dadına-tamına söz ola bilməz. Bütün bunlar digər yerlərdən muxtar respublikaya gətirilən taxıl məhsullarının qarşısını birdəfəlik alıb. İndi muxtar respublikanın ən ucqar dağ kəndlərində belə, çörəkbişirmə müəssisələri fəaliyyət göstərir.

Bu günlər qədim diyarımızda artıq daha bir məsul dövr yaşanır. Belə ki, artıq taxıl tədarükünə başlanılıb. Mövsüm ərzində əkin sahələrinə aqrotexniki qulluq diqqət mərkəzində saxlanılıb. Zəmilər vaxtlı-vaxtında suvarılıb, məhsuldarlığı yüksəltmək üçün gübrələr verilib.

6060 hektar sahənin taxılı tədarük olunub. Taxıl tədarükünə, hələlik, 30-a yaxın kombayn cəlb edilib. Toplanmış məhsulun daşınması üçün də tədbirlər həyata keçirilib, kifayət qədər texnika ayrılıb. Məhsul tədarükünə və daşınmasına cəlb edilən texnikalar əvvəlcədən işlək vəziyyətə gətirilib, kifayət qədər yanacaq və ehtiyat hissələr əldə olunub. Bu isə minbir zəhmətlə hasilə gətirilən məhsulun vaxtında toplanılacağına əminlik yaradıb.

Taxıl tədarükünə ilk olaraq Ordubad rayonunda başlanılıb. Bölgənin Dəstə, Vənənd, Düylün, Aza kəndlərində ilk günlərin nəticələri belə deməyə əsas verir ki, sahələrdə bol məhsul yetişdirilib, çəkilən zəhmət hədər getməyib. Culfa rayonunun Yaycı, Gülüstan, Ərəzin, Camaldın, Bənəniyar, Babək rayonunun Nehrəm, Çeşməbasar, Yarımca, Güznüt, Kərimbəyli, Nəcəfəlidizə, Qahab, Cəhri, Kəngərli rayonunun Böyükdüz, Şahtaxtı, Qıvraq, Təzəkənd, Çalxanqala, Şərur rayonunun Aşağı Daşarx və başqa yaşayış məntəqələrində taxıl tədarükü sürətlə davam etdirilir.

Məhsul yığımında üzləşilə biləcək çətinliklərin tezliklə aradan qaldırılmasını təmin etmək üçün rayonlarda qərargahlar yaradılıb.

Taxıl tədarükü prosesi ilə yaxından tanış olmaq üçün Babək rayonunun Nehrəm kəndində olduq. Torpaq mülkiyyətçiləri, mexanizatorlar, kənd ağsaqqalları ilə görüşdük. Nehrəm bələdiyyəsinin sədri Tofiq Abutalıbov uzun illər kənddəki ictimai təsərrüfata rəhbərlik edib. Torpağın dilini yaxşı bilir. Söhbətə doğma kəndi haqda məlumatla başlayır. Deyir ki, torpağa halal ruzi-bərəkət mənbəyi kimi baxan nehrəmlilər zəhmətkeş insanlardır. Onlar torpağın hər qarışından səmərəli istifadə edir, bəhrələrini də görürlər. Nehrəm torpaqları müxtəlif bitkiçilik məhsullarının əkilib-becərilməsi üçün çox əlverişlidir. Ona görə də uzun illərdir ki, kənd adamları əkinçilikdə, strateji sahə olan taxılçılıqda zəngin təcrübəyə malikdirlər. Qazanılan təcrübə, bu gün taxılçılığın inkişafına göstərilən qayğı ilbəil məhsuldarlığın yüksəldilməsinə, insanların həyat tərzinin yaxşılaşmasına təsir göstərən başlıca amillərdir.



Tofiq Abutalıbov bildirir ki, cari ilin məhsulu üçün Nehrəmdə 2500 hektara yaxın sahəyə toxum səpilib. Artıq kənd adamlarının üzü gülür. Bir neçə gündür ki, elin varının toplanılmasına başlanılıb. İndiyə qədər 500 hektardan çox sahənin taxılı tədarük edilib. Məhsuldarlıq da yüksəkdir. Yaz yağışlarının taxıla xeyli köməyi olduğunu vurğulayan Tofiq Abutalıbov bizi taxılı tədarük edilməkdə olan sahələrin birinə aparmağa etiraz etmir. Budur, Nehrəmin Araqapı deyilən ərazisindəyik. Burada torpaq mülkiyyətçisi Mehralı Cəfərovun 2 hektarlıq taxıl zəmisinin məhsulu tədarük edilir. Sahədə 3 kombayn işləyir. Öyrənirik ki, Tahir və Habil Nemətov qardaşları özlərinə məxsus olan yük avtomobili, traktor və kombaynlar ilə kənd adamlarının təsərrüfat işlərində onlara yaxından kömək edirlər. Bu mövsümdə də ilk olaraq onlar sahəyə çıxıblar.

Mehralı Səfərovun çöhrəsindəki təbəssümü duymaq çətin deyildi. O bildirdi ki, zəmidə yaxşı məhsul yetişib. Vaxtında biçinə başlayıblar. Bir azdan Tahir də kombayndan düşüb yanımıza gəlir, söhbətə qoşulur. Deyir ki, ilk günlərin nəticələri ürəkaçandır. Məhsulunu yığdığımız zəmilərdə yüksək məhsuldarlıq var. Çalışırıq ki, itkiyə yol verməyək, taxıl tədarükünü vaxtında başa çatdıraq. Kənddə 5 kombayn var. Ehtiyac olsa, "Naxçıvan Aqrolizinq" ASC-nin xidmətindən də istifadə edəcəyik.

Nehrəmdə əhalinin böyük əksəriyyəti taxılçılıqla məşğul olur. Torpaq mülkiyyətçiləri Asəf Məmmədov 25, Əhməd Həsənov 15, Məhərrəm Niftəliyev 10, Xəlil Babayev 5 hektar sahədə buğda əkiblər. Həmin torpaq mülkiyyətçiləri həm də heyvandarlıqla məşğul olurlar. Onlardan biri ilə həmsöhbət olduq. Xəlil Babayev bildirdi ki, o həm də 8 hektar sahədə arpa əkib. Dünən sahənin taxılını biçdirib. Məhsuldarlıq orta hesabla 25 sentner olub. Öyrənirik ki, Xəlil 600 baş xırdabuynuzlu heyvan saxlayır.

Kənddə çörəkbişirmə sexləri də az deyil. Həmin istehsal müəssisələri yerli xammala üstünlük verirlər.

**Kənddən, Nehrəmin torpaq qədri bilən zəhmətkeş adamlarından ayrılarkən yadıma Azərbaycan şeirinin görkəmli nümayəndəsi Səməd Vurğunun sözləri düşür:**

***Torpağa düşməsin havayı bir dən***
***Çörək bol olarsa, basılmaz Vətən.***

**Bu həqiqət artıq dərindən dərk edilən aksiomdur. Ona görə də taxıl tədarükünə cəlb edilənlər elin varını vaxtında və itkisiz toplamağa səy göstərirlər. Bilirlər ki, bu gün toplanılan məhsul sabah süfrəmizin çörəyidir.**

**Muxtar MƏMMƏDOV**

# Taxıl istehsalçılarının alıcı problemi yoxdur

## *"Taxıl Məmulatları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti bu mövsümdə də məhsulu yüksək qiymətə qəbul edir*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 sentyabr 2008-ci il tarixli Sərəncamla təsdiq etdiyi "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"na uyğun olaraq, muxtar respublikamızda ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Muxtar respublikamızda taxılçılığın inkişafı, istehsalın artırılması belə məhsulların saxlanılması üçün anbarların qurulması zərurətini yaradıb, son illər "Taxıl Məmulatları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində 27 min ton tutuma malik uzunmüddətli və 20 min ton tutuma malik qısamüddətli taxıl ehtiyatı anbarları istifadəyə verilib.***

Uzunmüddətli taxıl anbarı hər biri 3 min ton tutumu olan 9 bunkerdən ibarətdir ki, burada yüksək texniki göstəricilərə malik müasir texnoloji avadanlıqlar quraşdırılıb. Həmçinin burada işçilərə normal iş şəraiti yaradılıb, 8 iş otağı, yeməkxana, laboratoriya və digər yardımçı otaqlardan ibarət inzibati bina tikilib istifadəyə verilib. Müəssisə strateji əhəmiyyət daşıdığından burada ildırımötürücü qurğu və yanğından mühafizə sistemi quraşdırılıb.

Strateji əhəmiyyətli məhsulun tədarük olunub yüksək keyfiyyətlə saxlanılması istiqamətində həyata keçirilən tədbirlər uğurla davam etdirilib, ötən il Naxçıvan şəhərində "Bərəkət" Toxumçuluq Təsərrüfatı üçün yeni kompleksin inşasına başlanılıb. İnşaat işləri "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin təcrübəli inşaatçıları və mütəxəssisləri tərəfindən aparılır. Burada toxum, qüvvəli yem və xammal anbarları istifadəyə veriləcəkdir. Əvvəllər dəyirman kimi istifadə olunan bu ərazidə hər birinin tutumu 500 ton olan 48 bunker vardır. Təmir işlərindən sonra bunkerlər toxumun keyfiyyətlə və uzun müddətə saxlanılmasına imkan verəcəkdir. Muxtar respublikanın əsas toxumçuluq bazası olacaq bu kompleksdə taxılla yanaşı, digər kənd təsərrüfatı bitkiləri toxumunun satışı da həyata keçiriləcəkdir.

Görülən işlərin nəticəsidir ki, torpaq mülkiyyətçilərinin istehsal etdiyi taxılın alıcı sarıdan heç bir problemi yoxdur. Muxtar respublikada taxılçılıqla məşğul olan sahibkarlardan buğdanın hər kiloqramı 30 qəpikdən alınır. Bu, taxılçılığa olan marağın daha da artmasına səbəb olur. Taxıl Məmulatları Sənaye Kompleksində mövsümə hazırlıqla əlaqədar lazımi tədbirlər həyata keçirilib, havalandırma sistemində, ayrı-ayrı anbarlarda cari təmir işləri aparılıb, rəqəmsal tərəzi mütəxəssislər tərəfindən yoxlanılıb, laboratoriyaya baxış keçirilib.



Muxtar respublikada strateji əhəmiyyətli məhsula olan tələbatın daxili imkanlar hesabına ödənilməsi istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verib, 2015-ci ilin məhsulu üçün 26 min 746 hektar sahədə buğda, 9 min 491 hektar sahədə arpa olmaqla, ümumilikdə, 36 min 237 hektar sahədə bol məhsul yetişdirilib. Ayrı-ayrı rayonlardan gətirilən sarı kəhrəba "Taxıl Məmulatları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində laborator analizdən keçirildikdən sonra 60 tonluq rəqəmsal tərəzidə çəkilərək qəbul olunur. Toxumluq və istehsal üçün nəzərdə tutulan taxıl təyinatı üzrə ayrı-ayrı anbarlara təhvil verilir.

Taxılçılıqla məşğul olan sahibkarlardan Xaləddin Zeynalov, Ramiz Şükürov, Zürab Mehdiyev bizimlə söhbətdə qeyd etdilər ki, təsərrüfat suyuna olan tələbat vaxtında ödənilib, torpaq mülkiyyətçilərinə güzəştli şərtlərlə kreditlər və lizinq yolu ilə müasir kənd təsərrüfatı texnikaları verilib, "Naxçıvan Aqrolizinq" ASC-nin rayon bazalarında aqrotexniki xidmət sarıdan köməkliklər göstərilib. Həmçinin kənd təsərrüfatı məhsulları istehsalçılarına sərf etdikləri yanacaq və motor yağlarına görə dövlət tərəfindən hər hektar sahə üçün 40 manat və hər hektar sahə üçün tələb olunan mineral gübrələr verilib. Taxılın əkilib-becərilməsi ilə yanaşı, məhsulun vaxtında toplanılmasına və münasib qiymətə "Taxıl Məmulatları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinə təhvil verilməsinə də əlverişli şərait yaradılıb.

Sahibkarlar yaradılan şəraitə, göstərilən qayğıya görə dövlətimizə minnətdarlıqlarını ifadə etdilər.

**Kərəm HƏSƏNOV**

### Naxçıvan Muxtar Respublikası üzrə 22 iyun 2015-ci il tarixə taxıl biçininin gedişinə dair operativ məlumat

| S/№ | Rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | | | Biçilən taxıl sahəsi (hektar) | | | Məhsul istehsalı (ton) | | | Məhsuldarlıq (sentner) | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Cəmi: | Ondan | | Cəmi: | Ondan | | Cəmi: | Ondan | | Cəmi: | Ondan | |
| | | | Buğda | Arpa | | Buğda | Arpa | | Buğda | Arpa | | Buğda | Arpa |
| 1. | Şərur | 9187 | 7315 | 1872 | 700 | 400 | 300 | 2100 | 1200 | 900 | 30 | 30 | 30 |
| 2. | Babək | 10476 | 7869 | 2607 | 2024 | 974 | 1050 | 4753 | 2338 | 2415 | 23,5 | 24 | 23 |
| 3. | Culfa | 4982 | 3957 | 1025 | 1000 | 600 | 400 | 2100 | 1260 | 840 | 21 | 21 | 21 |
| 4. | Ordubad | 2150 | 1308 | 842 | 905 | 405 | 500 | 2480 | 1183 | 1297 | 27,4 | 29,2 | 25,9 |
| 5. | Şahbuz | 1344 | 1022 | 322 | - | - | - | - | - | - | - | - | - |
| 6. | Kəngərli | 4735 | 3104 | 1631 | 1265 | 285 | 980 | 2696 | 627 | 2069 | 21,3 | 22 | 21,1 |
| 7. | Sədərək | 2132 | 1147 | 985 | 156 | - | 156 | 546 | - | 546 | 35 | - | 35 |
| 8. | Naxçıvan şəhəri | 1231 | 1024 | 207 | 10 | - | 10 | 180 | - | 180 | 18 | - | 18 |
| Naxçıvan Muxtar Respublikası üzrə cəmi: | | **36237** | **26746** | **9491** | **6060** | **2664** | **3396** | **14855** | **6608** | **8247** | **24,5** | **24,8** | **24,3** |

***Ölkəmizdə qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirən, dövlətinə və xalqına sədaqətlə xidmət edən vətənpərvər, zəhmətkeş insanların əməyi daim yüksək qiymətləndirilir, onlar müxtəlif orden, medal və fəxri adlarla təltif olunurlar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2015-ci il 12 iyun tarixli sərəncamları ilə Azərbaycan səhiyyəsinin inkişafındakı xidmətlərinə görə bir qrup səhiyyə işçisi təltif edilib. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının səhiyyə işçiləri də vardır. Həmin səhiyyə işçilərinin bir neçəsini redaksiyamıza dəvət edib sevinclərini bölüşdük.***

## Səhiyyə işçiləri minnətdarlıq edirlər

***Şəfəq TARVERDİYEVA – Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının şöbə müdiri:*** – Uşaq yaşlarından həkim olmaq arzusu ilə yaşamışam. Ali tibb təhsili aldıqdan sonra təyinatla Şahbuz Rayon Mərkəzi Xəstəxanasında işə başladım. 1981-ci ildən Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında çalışıram. Həkimlik çox şərəfli, məsuliyyətli olmaqla yanaşı, həm də çox həssas bir peşədir. Qeyd edim ki, həkim bir xəstəni müalicə edib onu həyata qaytarırsa çox sevinir. Poliklinika həkiminin vəzifə borcu isə tamam başqadır. O işlədiyi ərazidə yaşayan bütün insanları – azyaşlılardan tutmuş bütün ailə üzvlərini tanımalı, onların sağlamlıq problemlərini bilməli, bu problemləri həll etməli və gələcəkdə onların daha sağlam yaşamaları üçün yol göstərməlidir. Mən də işlədiyim 35 il ərzində çalışmışam ki, diqqətim həkimə ehtiyacı olan insanların üzərində olsun. Üç il bundan əvvəl Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası yeni, müasir tibbi avadanlıqlarla təchiz edilmiş binaya köçdükdən sonra biz həkimlərin tibbi profilaktika, diaqnostika və müalicə sarıdan işi daha da yüngülləşdi.



"Tərəqqi" medalı ilə təltif edilməyimə gəlincə, eşidəndə sevincimin həddi-hüdudu olmadı. Həm sevindim, həm də qürur hissi keçirdim. Müasir tibb avadanlıqları ilə təmin olunmuş səhiyyə müəssisələri olan Naxçıvanda tibb işçisi kimi çalışmaq qürurvericidir. Mənə göstərilən bu etimadı doğrultmaq və insanların daha da sağlam yaşamalarına kömək etmək üçün var-qüvvəmi bundan sonra da əsirgəməyəcəyəm.

***Fərrux BAYRAMOV – Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzinin Reanimasiya şöbəsinin müdiri:*** – Əvvəlcə onu qeyd edim ki, səhiyyənin inkişafı kardioloji xidmət sahəsində də özünü göstərir. Belə ki, 2012-ci ildə Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzi üçün müasir avadanlıqlarla təchiz olunmuş yeni bina istifadəyə verilib. Burada əhaliyə nümunəvi tibbi xidmət göstərilməsi üçün hər cür şərait yaradılıb. Peşə bayramımız günü ərəfəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən mənə "Azərbaycan Respublikasının Əməkdar həkimi" fəxri adının verilməsinə ürəkdən sevindim. Mənim əməyimə, yerinə yetirdiyim vəzifə borcuna belə yüksək səviyyədə qiymət verildiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığımı bildirirəm. Söz verirəm ki, bundan sonra da öz üzərimdə daim çalışacaq, insanların sağlamlığının qorunmasına xidmət edəcəyəm.



***Hafizə RZAYEVA – Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin Yenidoğulmuşların reanimasiya və intensiv terapiya bölməsinin müdiri:*** – Səhiyyə ilə bağlı mühüm dövlət proqramlarının qəbul edilməsi, əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, insanların ən yüksək səviyyədə tibbi xidmətlərlə əhatə olunması bu istiqamətdə aparılan siyasətin əsas prioritetləridir. Səhiyyə müəssisələri üçün yeni binalar tikilir, mövcud binalar təmir və bərpa edilir, tibb ocaqları ən müasir avadanlıqlarla, vətəndaşlar pulsuz dərman vasitələri və preparatlarla təmin olunur. Səhiyyənin inkişafı ilə bağlı muxtar respublikamızda həyata keçirilən islahatlar öz bəhrəsini verməkdədir. Bacarıqlı, yüksəkixtisaslı tibbi kadrların hazırlanmasından tutmuş səhiyyə müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinə, yeni müəssisələrin yaradılmasına, ən müasir tibb avadanlıqlarının diyarımıza gətirilməsinə qədər görülən işlər səhiyyənin inkişafının əsas göstəriciləridir. Dövlətimizin səhiyyə sahəsinə bu qayğısı bir həkim kimi məni çox sevindirir. "Tərəqqi" medalı ilə təltif olunmağım isə sevincimi daha artırdı. Gərək elə çalışaq ki, etimadı doğruldaq. Dövlətimizin göstərdiyi bu etimadı doğruldacağımıza söz verir və bizə göstərilən qayğıya görə minnətdarlığımızı bildiririk.



***Zəhra QƏNBƏROVA – Şərur Rayon Mərkəzi Xəstəxanasının Uşaq xəstəlikləri şöbəsinin tibb bacısı:*** – 1994-cü ildən Şərur Rayon Mərkəzi Xəstəxanasında fəaliyyət göstərirəm. Bu illər ərzində insanlara nümunəvi tibbi xidmət göstərməyə çalışmışam. Təbii ki, kiçik əməyimin dövlətimiz tərəfindən belə yüksək qiymətləndirilməsi, "Azərbaycan Respublikasının Əməkdar tibb işçisi" fəxri adına layiq görülməyim mənim üçün böyük xoşbəxtlikdir. Biz tibb işçiləri sevinirik ki, belə müasir şəraitə malik səhiyyə ocaqlarında fəaliyyət göstəririk. Əvvəllər səhiyyə ocaqlarımız acınacaqlı vəziyyətdə idi. Artıq o illər arxada qalıb. Bu gün Naxçıvanda müasir səhiyyə sistemi yaradılıb. Həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində regionumuzda yeni səhiyyə ocaqları tikilməkdə, müasir dövrün tələbinə cavab verməsi üçün təmirə ehtiyacı olanlar əsaslı surətdə yenidən qurulmaqda və bu səhiyyə ocaqları müasir tibbi avadanlıqlarla təchiz olunmaqdadır. Fəaliyyət göstərdiyim Şərur Rayon Mərkəzi Xəstəxanasının binası son illərin ərməğanlarındandır. Səhiyyə sahəsinin inkişafı tibb işçilərinin səylə çalışmalarına stimul verir. Çəkilən zəhmət isə dövlətimiz tərəfindən yüksək qiymətləndirilir.



**Hazırladı: Sara ƏZİMOVA**

## Azərbaycan tarix yazır



***Avropa məkanına inteqrasiya etməklə ümumavropa xəzinəsinə özünün əvəzsiz töhfələrini verən Azərbaycan "Bakı-2015" birinci Avropa Oyunlarını keçirməklə qitə miqyasında Azərbaycan standartlarını yaradır.***

Birinci Avropa Oyunları təkcə adıçəkilən qitənin deyil, bütün dünyanın idman tarixində mühüm bir hadisədir. Müstəqilliyinin 24-cü ilini yaşayan Azərbaycan Respublikası bu oyunları yüksək səviyyədə təşkil etməklə Avropa ölkələrinə də nümunə göstərmiş oldu. Bundan sonra yüz il keçsə də, bütün Avropa, dünya bu həqiqəti etiraf edəcək, gələcəkdə Avropa Oyunlarının hər açılış mərasimində bu oyunların ilk keçirildiyi məkan kimi Odlar yurdu Azərbaycanın adı çəkiləcəkdir.

Bu gün ölkəmizdə bütün istiqamətlərdə olduğu kimi, idman sahəsində də tarixi uğurlar qazanılır. Təsadüfi deyil ki, respublikamız birinci Avropa Oyunlarında həm də qızıl medal qazanan idmançıların sayına görə seçilir. Azərbaycan idmançıları bu günədək keçirilən yarışlarda 14 qızıl, 7 gümüş və 14 bürünc medal qazanmaqla ön sıralarda yer alırlar. Bu, ölkəmizdə idmana göstərilən dövlət qayğısının nəticəsidir. Hər an dövlətimizin qayğısını hiss edən idmançılarımız müxtəlif olimpiadalarda, dünya, qitə və regional əhəmiyyətli mühüm idman yarışlarında qazandıqları medalların sayını ilbəil artırırlar.



Bu gün Naxçıvan Muxtar Respublikasında da idmanın inkişafına xüsusi diqqət və qayğı göstərilir, bu istiqamətdə ardıcıl tədbirlər görülür. Son 20 il muxtar respublikanın idman tarixində mühüm mərhələ təşkil edir. Bu dövr ərzində muxtar respublikada idmanın maddi-texniki bazası xeyli möhkəmləndirilib. Müasir idman infrastrukturunun formalaşdırılması qədim diyarımızda beynəlxalq yarışların keçirilməsinə də şərait yaradıb. Muxtar respublikada bu gün olimpiya-idman komplekslərinin, üzgüçülük mərkəzlərinin, şahmat mərkəzinin, uşaq-gənclər şahmat məktəblərinin, uşaq-gənclər idman məktəblərinin, Stend və Sportinq Atıcılıq Mərkəzinin, eləcə də stadionların, idman zallarının və sadə idman qurğularının, 12 idman federasiyasının fəaliyyət göstərməsi Naxçıvanda idmanın inkişafı üçün əsaslı zəmin yaradır. Son illər 40-a yaxın idman obyektinin istifadəyə verilməsi, ümumtəhsil məktəblərində ən müasir standartlara cavab verən idman zallarının yaradılması isə bu sahəyə göstərilən diqqətin nəticəsidir.

2014-cü ildə muxtar respublika idmançıları dünya çempionatlarında 2, Avropa çempionatlarında 4, beynəlxalq turnirlərdə 10, Azərbaycan birinciliklərində 56 medal qazanıblar. Bunun davamı olaraq, "Bakı-2015" birinci Avropa Oyunlarında idmançımız Tayfur Əliyev boks yarışlarında yarımfinal mərhələsinədək irəliləyərək qızıl medal uğrunda mübarizəsini davam etdirir. Böyük azarkeş kütləsinin dəstəyi ilə yarış meydanına çıxaraq rəqiblərini məğlub edən boksçumuz həm də yaşına görə diqqətləri üzərinə cəlb edir. Belə ki, birinci Avropa Oyunlarının boks yarışlarının ən gənc döyüşçüsü 17 yaşlı həmyerlimiz Tayfur Əliyevdir. İndiyədək keçirdiyi qarşılaşmalar isə belə deməyə əsas verir ki, boksçumuz qızıl medal qazanacaq idmançılar arasında real namizədlərdən biridir.

Bundan başqa, digər həmyerlimiz, Naxçıvan güləş məktəbinin yetirməsi Hacı Əliyev bürünc medal qazanıb və birinci Avropa Oyunlarını üçüncü pillədə başa vurub.

**Rauf ƏLİYEV**

**Azərbaycan tarix yazır**
**Avropanın yaddaşına,**
**Əbədidir bu tarixim –**
**Qobustanın yazısıtək.**
**Odlar yurdu od paylayır**
**yaxın, uzaq ölkələrə,**
**Qürur duyur oğlu, qızı –**
**sinəsinə sığmır ürək.**

**Torpağım zər, suyum atəş,**
**Günəş doğur Xəzərimdən,**
**Gecə-gündüz Atəşgahda**
**yanan atəş ürəyimdi.**
**İlk Oyunun məşəlini**
**əllərində tutana bax,**
**Od xalqımın Günəş eşqi,**
**sönməz arzu-diləyimdi.**

**Mən dünyaya barış əli**
**uzadıram min illərdir,**
**Beş qitədə məşəl kimi**
**yandırıram ürəyimi.**
**Günəş nurlu, məhəbbətli**
**ürəyimi səhər-axşam**
**Qaldırıram başım üstə**
**bir əbədi məşəl kimi.**

**Gördü dostum, düşmənim də –**
**mən güclüyəm, qüdrətliyəm,**
**Şimşəkləri parçalayıb,**
**sərt dağları yara bildim.**
**Yollarıma daş düzənin,**
**çəpər çəkib, sədd çəkənin**
**Arzusunu, istəyini**
**ürəyində qoya bildim.**

**Mənim yolum haqq yoludur –**
**istəyimə çatmaq üçün**
**Ulduzları bircə-bircə**
**dərib Yerə gətirərəm.**
**Yerdən qaya qaldıraram,**
**od alaram sudan, daşdan,**
**Boz çöllərə həyat verib,**
**gül-çiçəklər bitirərəm.**

**Babalarım min illərdir**
**Qobustanda əl-ələdir,**
**Ulu xalqım, bu birliyin,**
**həmrəyliyin pozulmasın!**
**Azərbaycan barış deyir**
**saf ürəklə Yer üzünə**
**Bu şüarı siz dünyanın**
**yaxasından Aytək asın!**

**Azərbaycan tarix yazır –**
**yüz il, min il ötsə belə**
**Tarixin daş yaddaşında**
**yaşayacaq adım mənim!**
**Qoca tarix özü şahid –**
**bundan sonra hər diyarda**
**Anılacaq adım mənim,**
**yaşayacaq odum mənim!**

**Asim YADİGAR**

## "Lira" musiqili-intellektual oyunu keçirilib



*Ötən şənbə günü Naxçıvan şəhərindəki Gənclər Mərkəzində muxtar respublikanın Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə "Lira" musiqili-intellektual oyunu keçirilib.*

Oyunda Naxçıvan şəhərinin və Ordubad rayonunun uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin şagirdləri iştirak ediblər. Muxtar respublikada ilk dəfə keçirilən "Lira" musiqili-intellektual oyununun məqsədi şagirdlərin musiqi haqqında dünyagörüşünü genişləndirmək, xalqımızın görkəmli bəstəkarlarının həyat və yaradıcılığını təbliğ etməkdir. Musiqili-intellektual oyunda iştirak edən məktəblərin komandaları müvafiq olaraq belə adlandırılmışdı: "Ballada" (Naxçıvan Şəhər 1 №-li Uşaq musiqi məktəbi), "Hicaz" (Naxçıvan Şəhər 2 №-li Uşaq musiqi məktəbi), "Simayi-şəms" (Naxçıvan Şəhər 3 №-li Uşaq musiqi məktəbi), "Buta" (Naxçıvan Şəhər 4 №-li Uşaq musiqi məktəbi), "Ariya" (Naxçıvan Şəhər Uşaq incəsənət məktəbi), "Cəngi" (Naxçıvan Şəhər Uşaq musiqi və bədii sənətkarlıq məktəbi), "Ruhani" (Qaraçuq Kənd Uşaq musiqi məktəbi), "Melodiya" (Ordubad Şəhər Uşaq musiqi məktəbi).

Oyun başlanmazdan əvvəl aparıcı iştirakçıları oyunun şərtləri ilə tanış etdi.

Gərgin və maraqlı keçən musiqili-intellektual oyun başa çatdıqdan sonra Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm nazirinin müavini, sənətşünaslıq üzrə fəlsəfə doktoru Natəvan Qədimova və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev musiqili-intellektual oyunun əhəmiyyətindən danışdılar. Sonda "Lira" musiqili-intellektual oyununda fərqlənənlərə diplomlar və fəxri fərmanlar təqdim edildi. "Simayi-şəms" komandası I, "Melodiya" komandası II, "Hicaz" komandası III dərəcəli diplomla təltif olundular.

**Əli RZAYEV**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 491